# Tibb professorumuz beynəlxalq akademiyaya üzv seçilib

**Azərbaycan Tibb Universitetinin professoru, tanınmış plastik-rekonstruktiv cərrah, tibb elmləri doktoru Vaqif Qələndər dünya tibb elmi və təhsili sahəsində göstərdiyi xidmətlərinə görə Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının (TDABEA) həqiqi üzvü seçilib. Akademiyanın qərarına əsasən, V.Qələndər "Qızıl ulduz" medalı ilə də təltif edilib.**



Bundan əlavə, TDABEA-nın rəsmi tövsiyəsi ilə İsveçrənin Cenevrə şəhərində yerləşən Beynəlxalq Mükafat Komitəsi tərəfindən professor V.Qələndərə "1-ci dərəcəli Hippokrat ordeni" təqdim olunub.

Məlumat üçün bildirək ki, ABŞ-ın Florida Universitetində Rui Fernandesin müəllifi olduğu "Local and Regional Flaps in Head Neck Reconstruction" dərsliyində professor Vaqif Qələndərin "Daxili döş arteriyası cərrahiyyəsi: yeni flebin təsviri" adlı bərpa üsulu "Vaqif Qələndər metodikası" kimi yer alıb və tədris olunur. Bu istiqamətdə bir çox dərslik və dərs vəsaitlərinin müəllifi olan V.Qələndərin 6 yeni cərrahiyyə metodu, 78 elmi əsəri xarici ölkə jurnallarında və beynəlxalq konfrans materiallarında nəşr edilib.

Qeyd edək ki, professor xaricdə bir çox elmi konfranslarda məruzəçi kimi iştirak edib, ölkəmizdə isə 3 dəfə Beynəlxalq Plastik və Rekonstruktiv Cərrahiyyə konfranslarına qatılıb. O, Azərbaycan Plastik Cərrahiyyə İctimai Birliyinin qurucusu və sədri olmaqla, həm də Beynəlxalq Plastik və Rekonstruktiv Cərrahiyyə Konfederasiyasının idarə heyətinin üzvü, Beynəlxalq Plastik və Estetik Cərrahiyyə Assosiasiyasının milli katibidir.

***Qəzənfər QASIMOV***
***XQ***

Xalq qəzeti.- 2025.- 4 aprel (№64).- S.10.